Tarix və şəxsiyyət

**Hər bir xalqın, millətin tarixində ağır, taleyüklü məqamlar olur. Həmin çətin anlarda yalnız güclü, təcrübəli, qətiyyətli liderlər xalqlarını öz arxalarınca apararaq, onları ağır təhlükələrdən xilas edə bilirlər. Belə liderlər öz adlarını mənsub olduqları millətlərin tarixində qızıl hərflərlə yazan dahi şəxsiyyətlərdir.**

# Xilaskarlıq missiyası



*Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, əbədi olması ondan da çətindir.*

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

Nəzərə almaq lazımdır ki, dünya tarixində belə liderlər az-az yetişir. Elə millətlər var ki, onlara belə bir xoşbəxtlik əsrlər boyu nəsib olmur. Əksinə, Azərbaycan xalqı o xoşbəxt xalqlardandır ki, onun tarixində Heydər Əliyev kimi dahi şəxsiyyət, böyük və xilaskar oğlu vardır. Məhz ulu öndər Heydər Əliyev öz millətinin və dövlətinin parlaq gələcəyi naminə böyük xilaskarlıq missiyasını şərəflə yerinə yetirə bilmişdir.

Xalqımız ümummilli liderin tarixə "Gəncə hadisələri" adı ilə düşmüş gərgin olaylar zamanı göstərdiyi yüksək siyasi səbatı, təmkin və qətiyyəti yaxşı xatırlayır. Ulu öndər həmin çətin günlərdə dəhşətli vətəndaş müharibəsinin qarşısını almış, Azərbaycanın ağır bəlalardan qurtulmasını təmin etmişdir.

Əgər Heydər Əliyev həmin çətin günlərdə siyasi tarix səhnəsində olmasaydı, xalqımız ağır fəlakətlərə düçar olardı. Azərbaycanın istiqlal və istiqbalına mane olmaq istəyən qara qüvvələr məhz bunu arzulayırdılar. O ağır dönəmdə məhz müdrik Azərbaycan xalqı və dahi siyasətçi Heydər Əliyev tandemi daxili və xarici düşmənlərin bəd niyyətlərini ürəklərində qoydu.

Gəlin həmin günlərə qısa ekskurs edək. 1993-cü ilin yayında ölkədə vəziyyət son dərəcə ağırlaşmışdı, hakimiyyət strukturlarına, o cümlədən, silahlı birləşmələrə nəzarəti itirən o zamankı iqtidar 1993-cü ilin yayında ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoymuşdu. Artıq bir sıra ərazilərdə – Gəncədə, Lənkəranda, Qusarda və digər regionlarda silahlı birliklər separatçı iddialarla çıxış edib, mərkəzi hakimiyyətə tabe olmadıqlarını bildirirdilər.

Hələ 1993-cü ilin fevralında prezident Əbülfəz Elçibəy keçmiş korpus komandiri Surət Hüseynovun rəhbərlik etdiyi 709 saylı hərbi hissənin ləğv edilməsi haqqında sərəncam imzaladı. Surət Hüseynov bu sərəncamı icra etmədi. Prezidentin 709 saylı hərbi hissənin rəhbərliyinin dəyişdirilməsi və onun Ağcabədi rayonuna köçürülməsi haqqında yeni sərəncamı da kağız üzərində qaldı. Üstəlik, Gəncəyə gələn dövlət nümayəndələri, hüquq-mühafizə orqanlarının rəhbər şəxsləri girov götürüldülər.

Bundan sonra ovaxtkı hakimiyyət 709 saylı hərbi hissənin tərksilah edilməsi ilə bağlı növbəti səhv qərar qəbul etdi və bununla da ölkədə qardaş qırğınına əsas yaratdı. 1993-cü il iyunun 4-də Surət Hüseynovun başçılıq etdiyi hərbi qüvvələrlə hökumət qüvvələri arasında silahlı toqquşma baş verdi, nəticədə 35 nəfər həlak oldu. Qardaş qanı tökülmüşdü, ölkə çalxalanırdı. Əhalidə sabaha, gələcəyə ümidsizlik yaranırdı, Azərbaycan dövlət müstəqilliyini itirə bilərdi.

1993-cü il Gəncə hadisələri AXC-Müsavat hakimiyyətinin cinayətkar səriştəsizliyi, ölkədə yaratdığı anarxiya, xaos, özbaşınalığın, cəbhə bölgələrində bir-birinin ardınca baş vermiş uğursuzluqların, hakimiyyətdə olanların pozucu fəaliyyətlərinin, AXC-Müsavat iqtidarına qarşı ümumxalq inamının heçə enməsinin məntiqi nəticəsi idi.

"Gəncə hadisələri" Azərbaycanda dərinləşməkdə olan hərbi-siyasi böhranı kritik həddə çatdırdı və ölkə vətəndaş müharibəsi astanasına gətirildi, S.Hüseynovun tabeliyindəki silahlı birləşmələr Gəncəbasar bölgəsində yerli hakimiyyət strukturlarını devirdilər və Bakıya doğru hərəkət etməyə başladılar.

Vətənin bu ağır günündə xalqın tələbi ilə Bakıya qayıdan ulu öndər Heydər Əliyevin böyük səyləri nəticəsində tezliklə ölkədə vətəndaş müharibəsinin qarşısı alındı. Qısa zaman kəsiyində ölkədə nizam-intizam, ictimai asayiş bərpa olundu, qanunçuluq gücləndirildi. Ulu öndərin qayıdışı və milli dövlətçiliyimizin təşəkkülü istiqamətində atdığı müdrik addımlar xalqımızın qəlbində ümid çırağı yandırdı. İnsanlar ümummilli liderin ətrafında sıx birləşməyə başladılar.

Bəli, bu, bir danılmaz həqiqətdir ki, dahi siyasətçi Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan məhv olmaq təhlükəsindən qurtuldu. Həyat bir daha göstərdi ki, tarixdə görkəmli şəxsiyyətlərin rolu həlledicidir. Heydər Əliyev tarixi hadisələrin arxasınca gedən siyasətçilərdən deyil, tarixi yönləndirən və yaradan böyük şəxsiyyətlərdəndir.

Ulu öndər Heydər Əliyev bu məsələ ilə bağlı çıxışlarının birində belə demişdir: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı və o vaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi və qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycanın ərazisinin, demək olar ki, yarısından çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək və Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar, belə bir zamanda, əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri və ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

Yeni Azərbaycan Patiyasının qurucu üzvlərindən biri, akademik Südeyif İmamverdiyev hesab edir ki, güclü siyasətçi, praqmatik lider, müdrik dövlət adamı kimi, Heydər Əliyevin titanik səyləri nəticəsində müstəqilliyin ilk illərində dağılmaq və dünya xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmış Azərbaycanı bu fəlakətdən qurtarmaq mümkün oldu, qısa müddətdə silahlı qarşıdurma cəhdlərinə son qoyuldu, ictimai-siyasi sabitlik təmin edildi, ölkə stabil inkişaf yoluna qədəm qoydu.

Hörmətli akademikin fikrincə, tarixdə Heydər Əliyev qədər millətin ruhuna, fikir və düşüncələrinə yaxından bələd olan, xalqını çətin hədəflərin əldə olunmasına səfərbər etməyi bacaran və hamı tərəfindən birmənalı olaraq sevilən liderlər çox azdır. İstər Qərbin, istərsə də Şərqin siyasət elmi bu fenomen şəxsiyyəti daim öyrənir, onun parlaq həyat və fəaliyyətindən bəhrələnməyə çalışırlar.

Milli Məclisin Aqrar siyasət komitəsinin rəhbəri Tahir Rzayev deyir ki, Azərbaycan xalqının tarixi sərvəti olan müstəqilliyimizin qorunub möhkəmləndirilməsində ümummilli liderin müstəsna xidmətləri olubdur. Dahi siyasətçi Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri özündən sonra Prezident İlham Əliyev kimi yüksək səriştəli, kreativ düşüncəli, intellektual, müdrik dövlət adamı yetişdirməsidir.

Ümummilli lider Heydər Əliyevin inkişaf strategiyası cənab İlham Əliyev tərəfindən dövrün tələblərinə uyğun zənginləşdirilməklə uğurla həyata keçirilmiş, Azərbaycanı güclü, müasir, beynəlxalq aləmdə nüfuzlu dövlətə çevirmişdir. 2020-ci ilin payızında Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək qətiyyəti, rəşadətli Azərbaycan Ordusunun igid əsgər və zabitlərinin qeyri-adi şücaətləri sayəsində Azərbaycan xalqı 44 günlük Vətən müharibəsində tarixi Qələbə qazanaraq, ölkəmizin ərazi bütövlüyünü bərpa etmişdir.

İkinci Qarabağ müharibəsində öz liderinin ətrafında bir yumruq kimi birləşən Azərbaycan xalqı isə bu gün işğaldan azad edilmiş ərazilərdə böyük həvəs və şövqlə qurub-yaratmaqla məşğuldur. Prezident İlham Əliyevin müdrik liderliyi ilə Azərbaycan dövləti və xalqımız regionda ədalətli və davamlı sülhün bərqərar olmasına çalışır. Məhz buna görə də sivil dünyanın, mütərəqqi bəşəriyyətin xalqımıza olan dərin inam və rəğbəti günbəgün artır.

Bu gün Azərbaycan xalqı öz qədim və şanlı tarixinin ən şərəfli günlərini yaşayır. Bütün bunlara görə biz ulu öndər Heydər Əliyevin ölkəmizin parlaq gələcəyinə xidmət edən ölməz ideya və zəngin siyasi irsinə borcluyuq. Nə qədər ki, Azərbaycan xalqı və dövləti yaşayır, Heydər Əliyevin arzu və idealları da yaşayacaqdır.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***